# ADİ ZİRİNC NÖVÜNÜN TƏTBİQ SAHƏLƏRİ

**Elnarə Salahova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu,*
*salahova.elnara@bk.ru*

Zirincin müalicəvi əhəmiyyəti hələ Qədim Vavilon və Hind xalqlarına məlum idi. B. e. 650 il əvvəl Assuriya çarı Aşşurbanipalın əlyazmalarında zirinc meyvələrinin müalicəvi əhəmiyyəti, cavanlaşdırıcı və qantəmizləyici əhəmiyyəti haqqında məlumat verilirdi. Eyni zamanda bu bitki Qədim Yunanıstanda və Romada becərilib qorunurdu. Tibet məbədlərindəki buddistlər zirinci yüzlərlə xəstəliyin müalicə və ömrü uzatmanın əsas vasitəsi hesab edirdilər. Bir çox ölkələrdəki insanlar zirincin müalicəvi xüsusiyyətlərini yaxşı bilmiş və onu "konfet ağacı" adlandırmışlar. Zirinc 1612-ci ildən Rusiyada məlum idi və çar Aleksey Mixayloviç Tişayşiy tərəfindən onun becərilməsi üçün göstəriş verilmişdi.

Demək olar ki, yalnız *Berberis vulgaris* L. növünün bütün vegetativ və generativ orqanlarından müalicəvi məqsədlər üçün istifadə edirdilər. Bitkinin köklərində və qabığında olan alkoloidlərin dozanı artırmamaq yolu ilə müalicəvi məqsədlər üçün istifadəsi mümkündür. Kökləri payızda, gövdəsinin qabığı may ayında, yarpaqları çiçəkləmə vaxtı (aprel-may), meyvələri isə tam yetişmə dövründə (oktyabr-noyabr) yığılır. Kök, yarpaq və qabığında berberin, üzvi turşular, C və E vitaminləri, flavonoid, aşı maddələri və mikroelementlər, meyvələrində mikroelementlər, üzvi turşular, C və K vitaminləri, yarpaqlarında isə P vitamini vardır.

Hazırda zirincin kökündən "Berberin bisulfat" preparatı hazırlanır ki, bu da xroniki hepatitdə, digər "Xolelitin" preparatı öd kisəsinin iltihabı və mədə daşlarının müalicəsində istifadə olunur. Kökün dəmləməsi qankəsici məhlul kimi işlədilir. Zirinc dərinin allergik xəstəliklərin müalicəsində tətbiq olunan qarışıqların tərkibinə daxildir, malyariyaya qarşı yaxşı təsir göstərir. Ağciyər və öd kisəsinin müalicəsində, soyuqdəymədə, qan təzyiqinin və ürək döyüntüsünün aşağı salınmasında yarpaqlarının dəmləməsindən istifadə edilir. Mədənin turşuluğunun aşağı salınması, kapilyar damarların divarını bərkitmək, iştahanı artırmaq üçün, eyni zamanda sidikqovucu, temperatursalıcı və büzüşdürücü maddə kimi dəmləməsi çox xeyirlidir.

Meyvələri qlükozid, fruktoza, alma turşusu, aşı maddələri, efir yağları ilə zəngindir. Meyvələri yeyinti sahəsində mürəbbə, jele, şirə, marmelad, likör və s. hazırlanmasında, Qafqazda ədviyyat kimi kulinariyada istifadə olunur, bəzi hallarda hətta limonu əvəz edir.

Zirinc kollarının çoxaldılması o qədər də çətin deyil. Zirinc bitkisi təkcə payızda və qışda kolu bəzəyən meyvələri ilə deyil, yaz və yay fəsillərində qeyri-adı görünüşlü yarpaqları ilə də çox dekorativdir.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olur ki, tədqiq etdiyimiz zirinc növləri həm şəhər və qəsəbələrin yaşıllaşdırılmasında, həm də xalq təsərrüfatının müxtəlif sahələrində istifadə məqsədilə böyük əhəmiyyətə malikdir. Bu növlərin perspektivliyini nəzərə alaraq, Azərbaycanın müxtəlif rayonlarında, o cümlədən Abşeronda becərilməsi və tədqiqi çox aktualdır.